**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə**
**Niderland Mərkəzi Statistika Bürosu**
**arasında statistika sahəsində əməkdaşlıq haqqında**
**Anlaşma Memorandumu**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Niderland Mərkəzi Statistika Bürosu (bundan sonra "Tərəflər" adlandırılacaqdır) statistika sahəsində əməkdaşlığın təşviq və inkişaf etdirilməsi, beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatların mübadiləsinin genişləndirilməsi və iki ölkənin statistika orqanları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər səlahiyyətləri çərçivəsində öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq aşağıdakı istiqamətlərdə əməkdaşlığı təşviq edirlər:

- texniki əməkdaşlıq üzrə beynəlxalq proqramlarda iştirakla bağlı birgə səylərin davam etdirilməsi;
- beynəlxalq statistik standart və metodların icrası və tətbiqində təcrübə və informasiya mübadiləsinin aparılması;
- elmi və metodoloji tədqiqatlarda əməkdaşlıq etdirilməsi və qarşılıqlı maraq doğuran layihələrin icrası.

Tərəflər həmçinin qarşılıqlı razılıq əsasında əməkdaşlıq üçün digər sahələri əlavə edə bilərlər.

**Maddə 2**

Tərəflər aşağıdakı vasitələrlə statistika sahəsində əməkdaşlığın qurulmasını dəstəkləyirlər:

- ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik nəşrlərin və materialların mübadiləsi;
- digər Tərəfin qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə elektron poçt mübadiləsinin, telekonfransın və mütəxəssislər üçün təlim səfərlərinin təşkili;
- beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əlaqə.

**Maddə 3**

Tərəflər bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq sahələrini illik iş planları vasitəsilə müəyyən edir. İş planlarında əməkdaşlığın mövzusu və forması,

texniki və maliyyə öhdəlikləri, cədvəllər və qarşılıqlı əsasda razılaşdırılmış digər məsələlər təsvir edilir. Bu Anlaşma Memorandumunun yerinə yetirilməsi üzrə çəkilən xərclər xüsusi iş planlarına uyğun olaraq birgə qərar əsasında müəyyən edilir.

İş planları Tərəflərin imzası ilə təsdiq edilir və bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi hesab olunur.

**Maddə 4**

Bu Anlaşma Memorandumunun icrası ilə bağlı kommunikasiya və əlaqələndirmənin həyata keçirilməsi üçün hər bir Tərəf əlaqələndirici şəxs təyin edir.

**Maddə 5**

Hər bir Tərəf statistik konfidensiallıq və məlumatların qorunması sahəsində digər Tərəfin dövlətinin milli qanunvericiliyinə hörmətlə yanaşmağı öhdəsinə götürür və onun əvvəlcədən yazılı razılığı olmadan nəşr olunmamış və açıqlanmamış məlumatların açıqlanmamasına və üçüncü tərəfə verilməməsinə zəmanət verir.

**Maddə 6**

Bu Anlaşma Memorandumu heç bir Tərəfə digər Tərəfin hər hansı patent, müəlliflik hüququ, əmtəə nişanları, firma adları və ya xidmət nişanlarından istifadə hüququnu vermir. Digər Tərəfin əqli mülkiyyət hüquqlarından istifadə etmək və ya əqli mülkiyyətin birgə istifadəsi ilə nəticələnən fəaliyyətlər ilə məşğul olmaq üçün Tərəflər arasında ayrıca yazılı razılıq əldə olunmalıdır.

**Maddə 7**

Fəaliyyət və əlaqələrin işçi dili ingilis dilidir. Anlaşma Memorandumu ilə bağlı bütün yazışmalar, eləcə də bütün hesabatlar ingilis dilində tərtib edilir.

**Maddə 8**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yaranan hər hansı mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunur.

**Maddə 9**

Bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilir və bu Anlaşma Memorandumunun 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minir.

## Maddə 10

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişin Tərəflərin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 3 (üç) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti haqqında ən azı 3 (üç) ay əvvəl diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 3 (üç) illik müddətə uzadılır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2020-ci il 22 yanvar tarixində hər biri Azərbaycan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirlə bağlı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətnə üstünlük verilir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından** | **Niderland Mərkəzi Statistika Bürosu adından** |